**N.B.CƏFƏROVA**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*e-mail: Cafarova_nabat@mail.ru*
**:https://orcid.org/0000-0003-0684-9374**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

**Q.C.ŞƏRİFLİ**
*e-mail: serifliqonce@gmail.com*

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.437**

# MÜASİR PEDAQOJİ YANAŞMALAR KONTEKSTİNDƏ ALİ TƏHSİLDƏ DAXİLİ QİYMƏTLƏNDİRMƏ

***Xülasə.*** *Müasir dövrdə ali təhsildə keyfiyyətin təmin olunması və tələbələrin öyrənmə nəticələrinin obyektiv qiymətləndirilməsi məsələsi qlobal miqyasda strateji prioritetlərdən biri kimi dəyərləndirilir. Təhsil sistemində aparılan islahatlar göstərir ki, qiymətləndirmə təkcə yekun nəticələrin ölçülməsi deyil, həm də öyrənmə prosesinin ayrılmaz hissəsi kimi qəbul edilməlidir. Bu baxımdan daxili qiymətləndirmə ali təhsildə mühüm alətə çevrilmişdir. Daxili qiymətləndirmə müəllim və fakültə heyəti tərəfindən həyata keçirilir, tələbənin tədris boyu bilik və bacarıqlarının davamlı izlənilməsinə, həmçinin öyrənmə prosesinin təkmilləşdirilməsinə xidmət edir. Müasir pedaqoji yanaşmalar bu mexanizmi tələbənin yalnız nəticələrinə deyil, öyrənmə dinamikasına diqqət yönəldən formativ proses kimi dəyərləndirir. Dünyanın müxtəlif ölkələrinin təcrübəsi göstərir ki, daxili qiymətləndirmənin tətbiqi ali təhsildə tələbələrin tənqidi düşünmə, problem həlletmə və əmək bazarının çağırışlarına uyğun kompetensiyalarının inkişaf etdirilməsində mühüm rol oynayır.*

***Açar sözlər:*** *daxili qiymətləndirmə, ali təhsil, formativ qiymətləndirmə, təhsil keyfiyyəti, öyrənmə prosesi, tələbə bacarıqları, tədris metodları*

**Əsas hissə.** Ali təhsil sistemində daxili qiymətləndirmə müasir pedaqoji nəzəriyyələrin əsas istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Tədris prosesində qiymətləndirmə yalnız yekun nəticələrin ölçülməsi vasitəsi deyil, həm də tələbənin öyrənmə prosesinin bütün mərhələlərində onun inkişafını izləyən və istiqamətləndirən mühüm mexanizm kimi çıxış edir. Xarici qiymətləndirmədən fərqli olaraq, daxili qiymətləndirmə ali təhsil müəssisəsinin daxilində müəllim və fakültə heyəti tərəfindən aparılır, tədris planı və proqramının konkret tələblərinə əsaslanır və tələbələrin bilik, bacarıq və kompetensiyalarının formalaşmasını davamlı şəkildə izləməyə imkan verir [1, s. 13].

Daxili qiymətləndirmənin əsas məqsədi tələbələrin yalnız nəticələrini yox, həm də onların öyrənmə prosesini əhatəli şəkildə qiymətləndirməkdir. Bu qiymətləndirmə formativ xarakter daşıyaraq tələbəyə hansı sahələrdə güclü, hansı sahələrdə isə zəif olduğunu göstərir və öyrənmə prosesində fərdi inkişaf üçün istiqamət verir. Müəllim üçün isə daxili qiymətləndirmə dərsin gedişini, tədris metodlarını və fənn proqramını tələbələrin real ehtiyaclarına uyğun şəkildə dəyişmək imkanı yaradır. Beləliklə, qiymətləndirmə prosesi yalnız nəticələrin ölçülməsi yox, həm də tədris prosesinin təkmilləşdirilməsi üçün vacib alətə çevrilir.

Ali təhsil müəssisələrində daxili qiymətləndirmənin həyata keçirilmə üsulları müxtəlifdir. Buraya kurs daxilində aparılan yazılı testlər, seminar çıxışları, layihələr, esse yazıları, portfellər və şifahi təqdimatlar daxildir. Bu metodlar vasitəsilə tələbənin yalnız nəzəri biliyi deyil, həm də analitik təfəkkürü, problem həlletmə bacarığı və ünsiyyət vərdişləri qiymətləndirilir. Xüsusilə "classroom assessment techniques" adlanan üsullar-məsələn, dərs zamanı "traffic light cards" metodunun tətbiqi-müəllimə dərhal geribildirim əldə etməyə imkan verir və tələbənin dərsi nə dərəcədə mənimsədiyini müəyyənləşdirir [Angelo & Cross, 1993, s. 122]. Bu üsullar tələbənin öyrənməsini daha şəffaf və davamlı şəkildə izləməyə imkan yaradır.

Elmi ədəbiyyatda qiymətləndirmənin etibarlılığı və doğruluğu məsələsi xüsusi vurğulanır. Bu anlayışlar yalnız yekun nəticələrin düzgün ölçülməsi ilə məhdudlaşmır, eyni zamanda qiymətləndirmənin tədris prosesinə uyğunluğu, yəni məqsədəuyğunluğu və tələbənin inkişafını stimullaşdırma səviyyəsi ilə sıx bağlıdır [3, s. 24]. Qiymətləndirmənin etibarlılığı onun nəticələrinin təkrarlandıqda eyni dərəcədə dəqiq və obyektiv olmasını təmin edirsə, doğruluq isə ölçülən bilik və bacarıqların real öyrənmə nəticələrini düzgün əks etdirməsi deməkdir. Bu baxımdan, etibarlılıq və doğruluq yalnız texniki göstəricilər deyil, həm də pedaqoji və institutsional kontekstdə qiymətləndirmənin keyfiyyətini müəyyən edən əsas meyarlardır.

Müasir pedaqoji yanaşmalardan biri olan 3P modeli – Məqsəd (Purpose), İnsanlar (People) və Proseslər (Processes)-daxili qiymətləndirmənin keyfiyyət təminatı baxımından mühüm nəzəri çərçivə kimi qəbul edilir [2, s. 44]. Bu model qiymətləndirməni yalnız texniki prosedur kimi deyil, həm də sosial-prosesual fəaliyyət kimi qiymətləndirir. Burada məqsəd, qiymətləndirmənin tədris strategiyası və universitetin missiyası ilə uzlaşmasını təmin edir, insanlar, yəni müəllim və tələbələr qiymətləndirmə prosesinə aktiv və məsuliyyətli şəkildə cəlb olunur, proseslər isə qiymətləndirmənin metodik yanaşmalarını, standartlarını və davamlı təkmilləşdirilməsini əhatə edir. 3P modelinin tətbiqi daxili qiymətləndirmənin həm obyektivliyini, həm də tələbənin öyrənmə prosesinə verdiyi töhfəni artırır.

Belə yanaşma, həmçinin qiymətləndirmənin tədris məqsədlərinə uyğunluğunu gücləndirir və təhsil müəssisəsinin strateji hədəfləri ilə birbaşa əlaqələndirir. Qiymətləndirmə yalnız nəticələrin yoxlanılması mərhələsi olaraq deyil, tədris prosesinin idarəedici və inkişaf etdirici mexanizmi kimi formalaşır. Bu çərçivədə 3P modeli həm müəllimlər, həm də tələbələr üçün qiymətləndirmənin şəffaf, obyektiv və pedaqoji məqsədlərə uyğun olmasını təmin edən etibarlı struktur kimi çıxış edir.

Daxili qiymətləndirmənin praktiki tətbiq nümunələri müxtəlif ölkələrin ali təhsil sistemlərində özünü göstərir. Hindistanın tibb fakültələrində IA (internal assessment) tələbələrin gündəlik dərsə davamiyyətinə, seminar iştirakına, klinik bacarıqlarına və yazılı tapşırıqlarına əsaslanaraq aparılır və yekun universitet imtahanına buraxılış üçün məcburi şərt hesab olunur [5, s. 118]. Bu yanaşma tələbələrin yalnız imtahan öncəsi hazırlığı deyil, həm də bütün tədris müddətində davamlı öyrənmə prosesini təmin edir.

Eyni zamanda, Gondia şəhərində fəaliyyət göstərən DB Science College-də sessiya imtahanları, seminarlar, layihə və təqdimatlar kombinə olunmuş formada tətbiq edilir, nəticələr isə xüsusi proqram təminatı vasitəsilə toplanaraq tələbə və müəllim üçün şəffaf şəkildə təqdim olunur [1, s. 75]. Bu model tələbənin akademik fəaliyyətini daha sistemli şəkildə izləməyə və obyektiv qiymətləndirmə aparmağa imkan verir.

Avropa təcrübəsi daxili qiymətləndirmənin formativ və inkişafyönümlü xarakterini xüsusilə ön plana çıxarır. Bu yanaşma qiymətləndirməni yalnız yekun nəticələrin ölçülməsi kimi qəbul etmir, əksinə, tələbənin öyrənmə prosesinə aktiv iştirakını təmin edən və onun davamlı inkişafını stimullaşdıran bir mexanizm kimi işləyir. Məsələn, Şotlandiyada həyata keçirilən REAP layihəsi (Re-Engineering Assessment Practices) çərçivəsində müxtəlif qiymətləndirmə üsulları birləşdirilir: tələbələrin özünüqiymətləndirməsi, qarşılıqlı qiymətləndirmə (peer assessment) və tutor qiymətləndirməsi eyni platformada inteqrasiya edilir [4, s. 231]. Bu yanaşma tələbənin yalnız akademik biliklərini yox, həm də tənqidi düşünmə, refleksiya və özünüidarə-

etmə bacarıqlarını inkişaf etdirməyə xidmət edir. Özünüqiymətləndirmə vasitəsilə tələbə öz öyrənmə prosesini daim izləyir, hansı mövzularda daha çox diqqət yetirməli olduğunu müəyyən edir və fərdi təhsil planını qurur. Qarşılıqlı qiymətləndirmə isə həm akademik, həm də sosial bacarıqların, xüsusilə əməkdaşlıq və ünsiyyət vərdişlərinin formalaşmasını gücləndirir. Tutor qiymətləndirməsi isə müəllimin tələbənin inkişafını müşahidə etməsi və vaxtında geribildirim verməsi imkanını artırır. Beləliklə, REAP layihəsi tələbəni yalnız passiv öyrənən kimi qəbul etmir, əksinə onu öz inkişafını idarə edən, məsuliyyət daşıyan və tədris prosesində aktiv iştirak edən subyekt kimi formalaşdırır. Bu cür model formativ qiymətləndirmənin praktik tətbiqində ən uğurlu nümunələrdən biri sayılır və ali təhsil müəssisələrində tədris keyfiyyətinin artırılmasına əhəmiyyətli töhfə verir.

Bu yanaşmanın tətbiqi yalnız Şotlandiya ilə məhdudlaşmır. Məsələn, Finlandiya universitetlərində tələbələrin formativ qiymətləndirməyə cəlb edilməsi xüsusi önəm daşıyır. Burada tələbələr seminar və laboratoriya məşqlərində özünüqiymətləndirmə hesabatları təqdim edir, həmkarlarının işini qiymətləndirir və müəllimlər tərəfindən verilən detallı geribildirim vasitəsilə inkişaf istiqamətlərini müəyyənləşdirirlər. Bu metod tələbənin öyrənmə prosesinə məsuliyyət hissini artırır, öyrənməni passiv qəbul etmədən, aktiv və reflektiv şəkildə idarə etməyə imkan verir.

Eyni zamanda, Hollandiya və Almaniya ali məktəblərində "portfolio assessment" (portfel qiymətləndirməsi) modeli geniş istifadə olunur. Tələbələr kurs boyu layihələr, esse və təqdimatlarını portfel şəklində toplayır, müvafiq olaraq həm özünüqiymətləndirmə, həm də müəllim qiymətləndirməsi aparılır. Bu yanaşma tələbənin yalnız fənn biliklərini yox, həm də analitik düşünmə, tənqidi qiymətləndirmə və yaradıcı bacarıqlarını inkişaf etdirməsini təmin edir.

Azərbaycan ali təhsil müəssisələrində də oxşar praktik nümunələrin tətbiqi mümkündür. Məsələn, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetində seminar və laboratoriya işləri zamanı tələbələrin özünüqiymətləndirməsi və qarşılıqlı qiymətləndirmə elementlərini daxil etməklə formativ qiymətləndirmənin səmərəliliyi artırıla bilər. Bununla yanaşı, rəqəmsal platformaların tətbiqi ilə tələbələrin qiymətləndirmə nəticələri real vaxtda müəllim və tələbə tərəfindən izlənilə bilər ki, bu da öyrənmə prosesini daha şəffaf və davamlı edir.

REAP layihəsi və Avropa universitetlərindəki təcrübələr göstərir ki, daxili qiymətləndirmə yalnız akademik nəticələri ölçən mexanizm deyil, həm də tələbənin öz inkişafını idarə etməsinə, məsuliyyət daşımasına və öyrənmə prosesinə fəal şəkildə qoşulmasına şərait yaradan strateji alət funksiyasını yerinə yetirir. Azərbaycan ali təhsil sistemində bu yanaşmaların tətbiqi tədris keyfiyyətinin yüksəldilməsi və tələbələrin müasir əmək bazarının tələblərinə uyğun bacarıqlarının formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, ali təhsil sistemində daxili qiymətləndirmə həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. O, təhsil prosesində nəticə mərkəzli deyil, proses mərkəzli yanaşmanı önə çəkərək tələbənin davamlı inkişafına şərait yaradır. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, effektiv daxili qiymətləndirmə mexanizmləri tələbələrin yalnız akademik göstəricilərini yüksəltmir, həm də onların analitik düşünmə, ünsiyyət, komanda işi və özünüidarəetmə kimi müasir dövrün əmək bazarında zəruri olan əsas bacarıqlarını formalaşdırır. Bu baxımdan daxili qiymətləndirmənin keyfiyyət təminatı ali təhsildə strateji istiqamət olaraq xüsusi əhəmiyyət daşıyır.

**Təklif və tövsiyələr.** Normativ-hüquqi bazanın təkmilləşdirilməsi – daxili qiymətləndirmə ilə bağlı vahid dövlət standartları hazırlanmalı, lakin universitetlərin akademik müstəqilliyi qorunaraq spesifik yanaşmalara imkan verilməlidir.

Müəllimlərin peşəkar inkişafı – ali məktəb müəllimləri üçün müasir qiymətləndirmə metodları, formativ qiymətləndirmə alətləri və rəqəmsal texnologiyalar üzrə ixtisasartırma proqramları təşkil olunmalıdır.

Tələbələrin aktiv iştirakı – özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə mexanizmləri tətbiq edilməli, tələbələrin qiymətləndirmə prosesinə daha məsuliyyətlə yanaşması təmin olunmalıdır.

Rəqəmsal platformaların tətbiqi – elektron qiymətləndirmə sistemləri vasitəsilə tələbələrin davamiyyəti, tapşırıqları və nəticələri toplanmalı, şəffaflıq və operativ geribildirim imkanları gücləndirilməlidir.

***İşin elmi nəticəsi.*** Aparılmış təhlil göstərir ki, ali təhsil sistemində daxili qiymətləndirmə müasir pedaqoji nəzəriyyələrin və təhsil siyasətinin ayrılmaz tərkib hissəsidir. Bu qiymətləndirmə yalnız tələbələrin əldə etdiyi biliklərin və nəticələrin ölçülməsi ilə məhdudlaşmır, həm də onların öyrənmə prosesinin bütün mərhələlərində intellektual, sosial və peşəkar inkişafının izlənilməsinə xidmət edir. Xarici qiymətləndirmədən fərqli olaraq, daxili qiymətləndirmə təhsil müəssisəsinin spesifik kontekstinə, kurikulum tələblərinə və tələbələrin fərdi xüsusiyyətlərinə uyğun aparılır. Bu isə tədris prosesinin daha çevik, adaptiv və tələbəyönümlü şəkildə təşkilinə şərait yaradır.

Daxili qiymətləndirmənin ən mühüm üstünlüklərindən biri onun formativ xarakter daşımasıdır. Bu yanaşma tələbəyə yalnız yekun nəticələr haqqında məlumat vermir, həm də onun güclü və zəif tərəflərini müəyyən edərək fərdi inkişaf planının qurulmasına imkan yaradır. Eyni zamanda, müəllim üçün bu mexanizm dərsin səmərəliliyini, seçilən tədris metodlarının effektivliyini və proqramın adekvatlığını dəyərləndirmək baxımından əhəmiyyətli göstəricidir. Nəticədə qiymətləndirmə prosesi sadəcə ölçmə və hesabat vermə funksiyasını deyil, həm də öyrənmə prosesini idarə edən mühüm pedaqoji alət funksiyasını yerinə yetirir.

Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, daxili qiymətləndirmə ali təhsildə tələbələrin akademik uğurlarını artırmaqla yanaşı, onların müasir əmək bazarında tələb olunan əsas kompetensiyalarını da formalaşdırır. Hindistanın tibb fakültələrində IA modelinin tətbiqi, Avropada REAP layihəsinin həyata keçirilməsi və digər beynəlxalq nümunələr göstərir ki, davamlı və çoxşaxəli qiymətləndirmə mexanizmləri tələbələrin məsuliyyət hissini gücləndirir, onların özünüqiymətləndirmə və refleksiya bacarıqlarını inkişaf etdirir. Bu həm də ali təhsilin keyfiyyət təminatı və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır.

Beləliklə, daxili qiymətləndirmə ali təhsil sistemində proses yönümlü yanaşmanı önə çəkərək tələbələrin inkişafını, tədris prosesinin təkmilləşdirilməsini və təhsil müəssisələrinin keyfiyyət göstəricilərinin yüksəldilməsini təmin edən strateji mexanizm kimi çıxış edir. Gələcəkdə bu istiqamətdə aparılacaq tədqiqatların, yeni qiymətləndirmə modellərinin tətbiqinin və rəqəmsal texnologiyaların prosesə inteqrasiyasının daxili qiymətləndirmənin daha da səmərəli olmasına şərait yaradacağı şübhəsizdir.

***İşin elmi yeniliyi.*** Keyfiyyət təminatı mexanizmlərinin gücləndirilməsi – qiymətləndirmə nəticələri yalnız hesabat məqsədilə deyil, həm də tədris prosesinin təkmilləşdirilməsi və təhsil keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunmalıdır.

Beynəlxalq təcrübənin tətbiqi – Avropa ali təhsil məkanında qəbul olunmuş qiymətləndirmə standartları və uğurlu təcrübələr Azərbaycan ali təhsil sisteminə uyğunlaşdırılmalı, Bologna prosesi çərçivəsində inteqrasiya davam etdirilməlidir.

İnnovativ qiymətləndirmə üsullarının təşviqi – layihə əsaslı öyrənmə, portfel qiymətləndirməsi, "classroom assessment techniques" kimi müasir yanaşmalar geniş tətbiq olunmalı, ənənəvi imtahan mərkəzli modeldən proses yönümlü modelə keçid gücləndirilməlidir.

***İşin tətbiqi əhəmiyyəti.*** Bizə elə gəlir ki, təqdim olunan məqalə "Müasir pedaqoji yanaşmalar kontekstində ali təhsildə daxili qiymətləndirmə" mövzusu ilə maraqlanan hər kəs üçün əhəmiyyətli ola bilər. Bu məqalədən sinif müəllimləri, tələbələr istifadə edə bilər.

## Ədəbiyyat

1. Alsuwaiket, M., Blasi, A. H., & Al-Msie'deen, R. Formulating module assessment for improved academic performance predictability in higher education. – 2020. – 244 p.
2. French, S. A review of the benefits and drawbacks of high-stakes final examinations in higher education. Higher Education / S.French, A.Dickerson, R.A.Mulder, – 2023. – 345 p.

3. Gao, R., Merzdorf, H. E., Anwar, S., Hipwell, M. C., & Srinivasa, A. Automatic assessment of text-based responses in post-secondary education: A systematic review. – 2023.
4. Nave, W. The assessment arms race and the evolution of a university's assessment practices. Assessment & Evaluation in Higher Education, –2020. 45(2), 229-241. https://www.academia.edu/30102924/Re_engineering_Assessment_Practices_A_matrix_for_curriculum_and_institutional_change
5. Rodríguez-Gómez, G., Ibarra-Sáiz, M. S., & García-Jiménez, E. (2024). A systematic literature review on authentic assessment in higher education. Studies in Educational Evaluation, 80, 101-118.

**N.B.Jafarova, G.J.Sharifli**

**Internal Assessment in Higher Education in the Context of Modern Pedagogical Approaches**

***Summary***

The article examines the theoretical foundations and practical application possibilities of internal assessment in the higher education system. The goals and functions of internal assessment, its formative nature and its contribution to the development of the student's learning process are analyzed. The possibilities of internal assessment based on various methods and approaches – tests, seminar presentations, projects, portfolios and other forms of education – are widely commented on. The article highlights both the transparency and the stimulating nature of internal assessment, citing the experiences of India, European countries and individual universities. As a result, it is noted that internal assessment not only eliminates the result-oriented approach in the higher education system, but also plays the role of a strategic mechanism that ensures the continuous development of students, the formation of their social and professional skills.

***Keywords:*** *Internal assessment, higher education, formative assessment, educational quality, learning process, student skills, teaching methods*

**Н.Б.Джафарова, Г.Дж.Шарифли**

**Внутренняя оценка в высшем образовании в контексте современных педагогических подходов**

***Резюме***

В статье рассматриваются теоретические основы и возможности практического применения внутренней оценки в системе высшего образования. Анализируются цели и функции внутренней оценки, её формирующая природа и вклад в развитие процесса обучения студентов. Широко обсуждаются возможности внутренней оценки, основанные на различных методах и подходах – тестах, семинарских презентациях, проектах, портфолио и других формах обучения. В статье подчёркивается как прозрачность, так и стимулирующий характер внутренней оценки, на примере опыта Индии, европейских стран и отдельных университетов. В результате отмечается, что внутренняя оценка не только исключает ориентированный на результат подход в системе высшего образования, но и играет роль стратегического механизма, обеспечивающего непрерывное развитие студентов, формирование их социальных и профессиональных навыков.

***Ключевые слова:*** *внутренняя оценка, высшее образование, формирующая оценка, качество образования, процесс обучения, навыки студентов, методы обучения.*

*Rəyçi: prof. S.Sadıqova*

*Redaksiyaya daxil olub: 03.09.2025*